MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 5, № 1, 2025*

**HUMANİTAR ELMLƏR BÖLMƏSİ**

UOT 479

# MİLLİ DÖVLƏTÇİLİK TARİXİMİZİN VƏ SUVERENLİYİMİZİN ŞANLI SALNAMƏSİNƏ PARLAQ SƏHİFƏLƏR YAZMIŞ QƏHRƏMAN GƏNCƏ

**Anar Nadir oğlu İsmayılov**
tarix üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
anar.ismayilov@mdu.edu.az
https://doi.org/10.30546/SJSD.2025.5.1.061

***Xülasə:*** *Azərbaycan xalqının milli tarixinin yazılmasında Gəncə şəhərinin özünəməxsus dəsti-xətti var. Müxtəlif tarixi dönəmlərdə qeyrət qalası, müqavimət mərkəzi və paytaxt kimi ad və statusların sahibi olmuş, böyük şairlər, yazıçılar, alimlər, filosoflar və qəhrəmanlar yetişdirmiş məkan kimi yaddaşlarda qalan Gəncə, həm də istiqlalımızın təntənəsinə, xalqımızın azadlıq və müstəqillik ruhunun yüksəlişinə misilsiz töhfələr vermişdir. Ölkəmiz 1828-ci ildə Rusiya ilə İran arasında bölüşdürüldükdən sonra xanlıq və faktiki olaraq, dövlət statusunu və adını itirən Gəncə sərt sınaqlar qarşısında qalsa da şanlı tariximizdən aldığı sarsılmaz iradə, güc və enerji sayəsində ayaqda qalmış, milli, dini və mədəni özəlliklərini, tarixi narrativlərdən bəhrələnmiş unikallığını israrla qoruyub saxlamışdır. Gəncə özünün yaradıcı və dəyişdirici potensialı ilə Azərbaycanda və Cənubi Qafqazda elmin, maarifçiliyin və dünyəviliyin sürətlə çiçəkləndiyi, müsəlman Şərqində pozitivizm, demokratizm və liberalizm ideyalarının gerçəkliyə çevrildiyi mərkəzlərdən biri kimi özünü təsdiq etmişdir. Gəncədə tarixən mövcud olan kreativ atmosfer Azərbaycan intellektual elitasının ərsəyə gələməsinə güclü təkan vermiş, intellektual-mədəni dəyərlərimizi, əvvəlki nəsillər-dən miras qalmış ənənələrimizi ali kürsülərə qaldırmış böyük şəxsiyyətlər yetişdirmişdir. Bu gün suveren Azərbaycanın "2-ci böyük şəhəri" statusuna sahib olan Gəncə xalqımızın və milli dövlətimizin sosial-iqtisadi, ictimai-siyasi və ruhani-mədəni həyatında mühüm rol oynayır. Təqdim olunan məqalədə, məhz Gəncə şəhərinin Azərbaycan xalıqının dövlətçilik tarixində oynadığı roldan bəhs olunur, onun milli tariximizə bəxş etdiyi şanlı salnamə təhlil edilir və qiymətləndirilir.*

***Açar sözlər****: Azərbaycan, Gəncə, tarix, milli istiqlal, qəhrəman şəhər, milli dövlətçilik*

## Giriş

Cənubda Zəncandan, Qəzvindən və Həmədandan tutmuş şimalda Gəncəyə, Zaqatalaya, Şəkiyə, Qəbələyə və Dərbəndə qədər Azərbaycanın tarixi ərazilərində taleyin ağır sınaqlarına sinə gərmiş və dünyanın gərdişini dəyişən möhtəşəm hadisələrin şahidi olmuş yurdlarımızın - şəhər və kəndlərimizin hər biri milli tariximizdə özünəməxsus iz qoymuş və "Azərbaycan" adlanan çoxəsrlik şanlı salnamənin yazılmasına öz töhfəsini vermişdir. Öz adını Azərbaycanın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazdırmış şəhərlərimiz içərisində Gəncəninin xüsusi yeri, rolu və əhəmiyyəti var.

Gəncənin şanlı tarixi eramizin ilk əsrlərindən başlayır. O dövrdə şəhərin yaranmasına şərait yaradan faktorlar təkcə onun təşəkkül tapdığı ərazinin təbii və coğrafi şəraitilə əlaqədar deyildi. Sözügedən yaşayış məntəqəsi ictimai tərəqqinin və sivilizasiyanın lokomotivlərindən biri sayılan ticarət yollarının üzərində, mühüm starteji əhəmiyyət kəsb edən bir məkanda qərar tutmuşdur. Buna görə də taleyinə və qədərinə təlatümlərlə dolu hadisələr yazılmışdır. Ərəb istilası dövtündə Gəncə-nin yüksəliş dövrü başlanmış və bu Məhəmməd ib Xaliddən (844-861) başlayaraq, Aranda, Şirvan-da və Ərməniyyədə [8] (Əməvilər sülaləsinin - 661-750, dövründə müəyyən olunmuş inzibati bölgüyə görə, IV əmirlik və yaxud canişinlik) hakimlik edən ərəb-Məzyədi sülaləsinin nümayəndə-lərinin mühüm strateji məntəqə kimi Gəncəyə göstərdikləri böyük diqqət və qayğının nəticəsi olmuşdur. Qeyd etmək lazımdır ki, eramızın ilk əsrlərindən başlayaraq, Gəncə "Böyük ipək yolu"-nun üzərində ən mühüm məntəqələrdən birinə çevrildi. "Böyük ipək yolunun" əsas marşrutlarını

təsvir edən bütün xəritələrdə Cənubi Azərbaycandan Qara dəniz sahillərinə aparan ticarət xəttinin məhz Gəncədən keçdiyi göstərilir. 1993-cü ildə keçmiş SSRİ məkanında təmsil olunan dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının iştirakı ilə yaradılmış TRACECA (ing. ***Tra**nsport* ***C**orridor* ***E**urope-**C**aucasus-**A**sia*) proqramı üzrə marşrutun mühüm məntəqələrindən biri də Gəncə şəhəridir [5]. Tarixən ticari, iqtisadi, siyasi və mədəni aktivliyin mərkəzində yerləşən Gəncə, bütün varlığı ilə haqqın və ədalətin yanında olmuş və özünün inqilabçı ruhu və üsyankar xarakteri ilə milli dövlətçiliyimizin və suverenlyimizin təntənəsi naminə saysız-hesabsız qurbanlar vermişdir. Müqəddəs şəhidlərin qanı bahasına adını, şərəfini və namusunu qorumuş Gəncə, heç vaxt düşmənlərə baş əyməmiş, bununla da Azərbaycanın qəhrəmanlıq simvollarından birinə çevrilmişdir. Bu spesifik tarixi məkanda hər vaxt fövqəladə kreativ atmosferin olması dünya şöhrətli yaradıcı şəxsiyyətlərin yetişməsi üçün münbit şərait yaratmışdır. Şeyx Nizami, məhz Gəncənin əsrarəngiz yaradıcı ruhundan ilham alaraq dünya ədəbiyyatının əsl inciləri sayılan möhtəşəm əsərlər yaratmışdır. Azərbaycan milli dövlətçiliyini demokratizm kimi xarakterizə olunan yüksək siyasi kürsüyə qaldırmış intellektal elitanın nümayəndələri sırasında Gəncə şəhərinin yetişdirdiyi çox böyük şəxsiyyətlər də var.

Azərbaycan intellektual elitasına görkəmli simalar bəxş etmiş gəncəlilərin adlarını sadalayıb qurtarmaq mümkün deyil. Onlardan əməlləri dillər əzbəri olan bir neçəsinin adını qeyd etmək kifayətdir ki, Gəncənin necə bir yaradıcı potensiala, intellektual, ruhani və mədəni güc mənbəyinə sahib olması haqqında əsrarəngiz mənzərə yaranmış olsun: Məhsəti Gəncəvi 1089-1181, şairə), Mirzə Cəfər Topçubaşov (1790-1869, şərqşünas, alim), Mirzə Şəfi Vazeh (1794-1852), Nəsib bəy Yusibbəyli (188-1921, dövlət və siyasət xadimi), Cahangir bəy Kazımbəyov (1885-1955, hərbiçi), Həsən bəy Məşədi Hüseyn oğlu Ağayev (1875-1920, dövlət xadimi, AXC Parlamentinin sədr müavini, həkim və jurnalist), İsmayıl xan Əbülfət xan oğlu Ziyadxanov (1867-1920, hərbiçi), Xudadat bəy Ələkbər bəy oğlu Rəfibəyli (1878-1920, dövlət xadimi), Adil Rza bəy oğlu İsgəndərov (1910-1978, aktyor və rejissor), Nigar Xudadat qızı Rəfibəyli (1913-1981, şairə), Məmmədraza İsa oğlu Şeyxzamanov (1915-1984. aktyor), Fikrət Məşədi Cəmil oğlu Əmirov (1922-1984, bəstəkar), Mehdi Əsədulla oğlu Məmmədov (1918-1985, aktyor), Ələkbər Tağıyev (1924-1981, hüquqşünas və bəstəkar), Həsən Əziz oğlu Həsənov (1940, dövlət və siyasət xadimi) İsmət İsmayıl oğlu Qayıbov (1942-1991, dövlət və siyasət xadimi, hüquqşünas), Şahmar Zülfüqar oğlu Ələkbərov (1943-1992, aktyor) və b.

**Gəncənin milli dövlətçilik və suverenlik tariximizdə ilk addımları**

Azərbaycanın orta əsrlər tarixində mərkəzi Gəncə şəhəri olan Şəddadilər dövlətindən bəhs olunur. Mənbələrdə qeyd olunur ki, Dəbil (indiki İrəvan rayonunda qədim şəhər, yalnız xarabalıqları mövcuddur) şəhərində məskunlaşan Şəddadi sülaləsinin nümayəndələri IX əsrin sonu, XI əsrin əvvəllərində Şimali Mesopotamiyada və Suriyada mövcud olmuş Həmdanilər dövlətinin (890-1004, Şimali Mesopotamiyada - Bədiyyət əl-Cəzirədə və Suriyada xristianlığa sitayiş edən qədim ərəb-tağlibilər qəbiləsinin nəsilləri, İraq şiələrinin ən radikal qollarından birinə xidmət edirdilər) hökmdarlarına xidmət edirdilər. Azərbaycanın şimalında, xüsusilə də Gəncədə yaranmış mürəkkəb hərbi-siyasi vəziyyətlə əlaqədar Həmdanilər dövlətinin başçısı Həmdan ibn Həmdun ibn əl-Hariz ət-Tağlibinin (868-874, - Həmdanilər sülaləsinin banisi və eponimi) göstərişi ilə Məhəmməd ibn Şəddadın oğlu Fəzl ibn Məhəmməd İraqın şimalında yaşayan kürd klanlarının dəstəyi ilə Gəncəyə gəldi. Tezliklə qardaşı Ləşkəri ibn Məhəmməd də ona qoşuldu. Şəddadilər Gəncə əhalisini gürcülərin və Şimali Qafqaz dağlılarının dağıdıcı hərbi yürüşlərindən xilas etdikləri üçün Gəncənin qədirbilən türk əhalisi onlara (Fəzl, Ləşkəri, Mərzuban) minnətdarlıq rəmzi kimi hakimlik statusu verilməsini qərara aldı. Beləliklə, Gəncə şəhəri mərkəz olmaqla Azərbaycanda yeni müstəqil feodal dövləti yarandı. Tarixdə Şəddadi dövləti (871-1888-ci illər) kimi qalmış bu dövlət Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynadı. Məhz Şəddadilərin hakimiyyəti dövründə Gəncənin orta əsrlər şəhərinə xas olan nümunəvi obrazı formalaşdı. Bərdəyə və Beyləqana qədər Azərbaycanın Aran bölgəsini və Qarabağın Dağlıq hissəsini nəzarət altına alan Şəddadilər Azərbaycanın cənub hissəsi ilə və İranla kommunikasiyaların yaradılmasına özəl diqqət ayırdılar. Nəticədə, Araz çayı üzərində bugünədək gəlib çatmış Xudafərin körpüləri (1027) inşa olundu. Orta əsr mənbələri Şəddadi sülaləsinin islamın fədakar müdafiəçiləri olması və dinə təcavüz edən gürcülərə, ermə-

nilərə, bizanslara, alanlara və ruslara qarşı silahlı mübarizə aparması haqqında məlmat verir. Səlcq yürüşləri ilə əlaqədar Şəddadilər Səlcuq sultanı Toğrulun (Rüknəddövlə Vəddin əs-Sultan əl-Müəzzəm Əbu Talib Toğrul bəy Yamin Əmir əl-Möminin - 990-1063, 1038-1063-cü illərdə Səlcuqlar səltənətinin 1-ci sultanı) süzerenitetini qəbul etməyə məcbur oldular. Şəddadilərin sonuncu hökmdarı III Fəzlun ibn Fəzlin (1073-1075) hakimiyyəti dövründə Səlcuq hökmdarı Məlik-şah (Məlik-şah Əbülfət Cəlaləddin ibn Alp-Arslan – 1055-1092, 1072-1092-ci illərdə Səlcuqlar səltənətinin 3-cü sultanı) Gəncəni və ətraf rayonları nökəri Sav Təkinə hədiyyə etdi. [6] Beləliklə, Şəddadi suverenliyinə son qoyuldu və Azərbaycanda yeni tarixi dövr başlandı. Tədqiqatçılar, yanlış olaraq, XII yüzilliyədək Gəncədə yaşayan əhalinin İran mənşəli olması haqqında iddialar irəli sürür [9]. Lakin bu Azərbaycanda geosiyasi maraqları olan qüvvələrin sifarişidir. Gəncədə tarixən türk kökənli əhalinin yaşaması isə əsla polemika mövzusu deyil.

**Gəncə xanlığı - Azərbaycanda suverenlik tarixinin ən parlaq nümunəsi kimi**

Azərbaycan tarixində Gəncənin növbəti passionarlıq aktı və siyasi aktivliyi XVIII əsrin 40-cı illərində baş verdi. Əfşarlar imperiyasının imperatoru Böyük Nadir şahın qətlindən (20.07.1747) sonra Azərbaycanın şimalında və cənubunda yaranan çoxlu sayda yarımasılı və müstəqil feodal dövlətlərindən biri də məhz Gəncə xanlığı oldu. Bu gün müasir Azərbaycan tarixşünaslığında xanlıqlar dövrü "feodal pərakəndəliyi" kimi xarakterizə olunsa da xanlıqları Azərbaycanda güclü mərkəzləşmiş dövlətin yaradılması istiqamətində ilkin mərhələ və yaxud "siyasi tramplin" kimi təqdim etmək daha düzgün və ədalətli olardı. XVIII əsrin sonu, XIX əsrin əvvəlində Azərbaycan xanlıqlarında baş verən proseslər ən yaxın gələcəkdə daha güclü feodal hökmdarlarının rəhbərliyi altında Azərbaycanın böyük bir hissəsinin mərkəzləşmiş və vahid dövlətdə birləşdiriləcəyindən xəbər verirdi. Böyük ehtimalla bu Gəncə, Quba və yaxud Qarabağ xanlığı ola bilərdi. Lakin xanların, o cümlədən Gəncə xanı Cavad xanın (Şahverdi xan oğlu Ziyaduğlu Qacar - 1748-03.01.1804, - 1786-1804-cü illərdə Gəncə xanı) volyuntarist ruhlu hökmdar olmasını nəzərə alaraq, Şimali Azərbaycan xanlıqlarının konfederasiyasının yaradılacağı ehtimalları da çox böyükdür. Lakin Rusiya imperiyasının təcavüzkar planları və açıq-aşkar hərbi təcavüzü nəticəsində Azərbaycan xanlarının birliyi əsla baş tutmadı və 1813-1828-ci illərdə Azərbaycanın Rusiya tərəfindən işğalı gerçəkləşdi. Rusiyanın hərbi təcavüzü dövründə işğalıçılara qarşı edilən müqavimət Azərbaycan xanlarının və xanlıqların ərazisində yaşayan azərbaycanlıların azadlığa və istiqlala bəslədiyi sevgisinin təcəssümü idi. Sözügedən dövrdə xalqa, vətənə və istiqlala olan sonsuz məhəbbətin ən parlaq ifadəsindən biri də Gəncə hökmdarı Cavad xanın rəhbərliyi altında Gəncənin qəhrəman müdafiəsi idi. XIX yüzilliyin əvvəllərində imperiya xislətinin yeni partlayışını yaşayan Rusiya Cənubi Qafqazda mövcud olan həssas və qeyri-ordinar situasiyadan öz xeyirinə istifadə etməyi və əraziləri işğal etməyi qərara aldı. Bu minvalla Cənubi Qafqaz xalqlarının tarixinə və taleyinə Rusiya fakroru daxil oldu. O, zorakı üsullarla Cənubi Qafqaz xalqlarının tarixini, ənənələrini və bütün qırmızı xətlərini tapdaladı və onları 150 il davam edən əsarətə məhkum etdi. Azərbaycan xanları hər hansı kuralı tanımaq istəməyən nataraz və eybəcər monstrın dağıdıcı həmlələri qarşısında nə edəcəklərini bilmədilər. Bəzi xanlar "əməkdaşlıq etməyi", bəziləri isə dağlara və yaxud İrana qaçmağı qərara aldı. Ölüm və dəhşət saçan Rusiya hərb maşınının qarşısına dəyanətlə çıxan Gəncə və Gəncə əhalisi isə Cavad xanın komandanlığı altında Azərbaycan tarixinə şücaətin və rəşadətin parlaq nümunəsini öz müqəddəs qanı ilə yazdı. Rus ordusunun gürcü əsilli hərbi komandanı, Cavad xana və gəncəlilərə qarşı xüsusi nifrətilə seçilən Pavel Dmitrieviç Sisianov (orij. *Pavle Dimitris Sisişvili* - 1754-1804) sərəncamında olan hərb maşınının bütün dağıdıcı gücünü rus ağalığına qəti şəkildə "yox" deyən Gəncə müdafiəçilərinin üzərinə yeritdi. Cavad xan Sisinaovun Gəncənin təslim olması haqqında məktublarına verdiyi sərt və qəti cavabların necə ağır nəticələr verəcəyini yaxşı bilirdi. Lakin türk-Qacar nəslinin [2] qəhrəman ruhundan tükənməz güc alan, azadlığa və istiqlala tükənməz məhəbbət bəsləyən Cavad xan Ziyadoğlu Gəncə qalasının divarları üzərində, əlində qılınc, son damla qanına qədər vuruşaraq, şəhidliyə qovuşmağı, ona "əff ediləcəyini" vəd edən yağının qılıncının altından keçməkdən üstün tutdu və Sisinaova cavab verdiyi kimi ("Sən yalnız mənim cəsədimin üzərindən Gəncəyə daxil ola bilərsən") qala divarları üzərində oğlu Hüseynqulu ilə birlikdə şəhid oldu [7]. Cavad xanın doğma oğlu ilə birlikdə qəhrəman kimi həlak olması

Azərbaycanda əsrlər ərzində formalşamış şəhidlik ideyasına yeni məzmun qatdı. Şəxsən hökmdarın özünün düşmənə qarşı ön sıralarda, əlində qılınc vuruşması və bir addım belə geri çəkilməməsi, üstəlik, ona hər şeydən əziz olan doğma oğlu ilə birlikdə çiyin-çiyinə vuruşaraq şəhid olması nə qədər kədərli olsa da, igidliyin fəlsəfəsini daha müqəddəs və ali kürsüyə qaldırdı. Hökmdarın qəhrəman kimi həlak olması Azərbaycanda şəhidlik institutunun rəsmiləşdirilməsi və müqəddəs ənənəyə çevrilməsində misilsiz nümunə oldu.

Artıq 221 ildir ki, Cavad xanın və oğlu Hüseynqulunun qəhrəmanlıq nümunəsi Azərbaycan və türk kişisində fədakarlıq motivasiyası yaradan, onda vətənə, yurda, xalqa sonsuz məhəbbət, düşmənə dərin nifrət aşılayan dəyər kimi çıxış edir, milli ideyaların formalşamasında fəal iştirak edən tarixi narrativ kimi həlledici əhəmiyyət daşıyır.

**1920-ci il Gəncə üsyanının suverenlik tariximizdə rolu və əhəmiyyəti**

XX əsrin əvvəllərində Cavad xanın və minlərlə Azərbaycan qəhrəmanlarının müqəddəs savaşını maarifçilik və demokratizm ideyalarından güc almış yeni bir nəsil davam etdirdi [3]. Lakin həmişə olduğu kimi Azərbaycanda milli dirçəliş hərəkatı və istiqlal mücadiləsi erməni-rus irticası ilə üz-üzə qaldı. Belə şəraitdə isə1906-cı ildə Gəncədə erməni-rus təcavüzünə qarşı sipər yaratmaq üçün “Difai” (“Müdafiə”) adlanan gizli əksinqilabçı təşkilat yarandı. “Difai” antiterror təşkilatının yaradıcıları və rəhbərləri sırasında dövrün görkəmli siyasət xadimləri və Azərbaycanı canları qədər sevən şəxsiyyətlər var idi: Xudadat bəy Ələkbər bəy oğlu Rəfibəyli (1878 - 01.06.1920, ADR-in Səhiyyə və Sosial Təminat Naziri, 06 may 1919-cu il tarixindən ADR-in süqutuna qədər Gəncə qubernatoru), Şəfi bəy Mustafa bəy oğlu Rüstəmbəyov (1893-1960, görkəmli dövlət və siyasət xadimi, ADR parlamentinin deputatı və ADR Daxili işlər nazirinin müavini), Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov (1873-1945, görkəmli dövlət və siyasət xadimi), İsmayıl Xan Əbülfət Xan oğlu Ziyadxanov (15.08.1867 - 06.06.1920, ADR ordusunun podpolkovniki), Nəsib bəy Yusif bəy oğlu Yusifbəyli (05.07.1881 - 31.05.1920, 14.03.1919 - 30.03.1920-ci illərdə ADR hökumətinin başçısı), Əhməd bəy Ağaoğlu (1869-1939), Həsən bəy Məşədi Hüseyn oğlu Ağayev (1875 - 19.07.1920), Qara bəy İsmayıl oğlu Qarabəyov (1874-1953, Azərbaycanın dövlət və siyasət xadimi), Behbud xan Azad xan oğlu Cavanşir (1878-18.07.1921), Məhəmmədhəsən Cəfərqulu oğlu Hacınski (1875-1931), İsa bəy Aşurbəyov (1878-1938) və b. Qeyd edilən şəxslərdən, Məmmədhəsən Hacınski, Əhməd bəy Ağaoğlu, İsa bəy Aşurbəyov və Şəfi bəy Rüstəmbəyov istisna olmaqla hər biri Gəncədə və Gəncə ətarfında yerləşən bölgələrdə (Yelizavetpol quberniyası) doğulub, böyüyüb, boya-başa çatmış vətənpərvər insanlar idi [1].

Vətənin təhlükəsiliyinin müdafiəçiləri, xalqın namusunun mühafizəkarları kimi milli tariximizə adlarını qızıl hərflərlə yazmış bu şəxsiyyətlər sonadək milli istiqlalımız uğrunda qəti mübarizə apardılar və çoxları bu müqəddəs mübarizədə şəhid oldular. 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik cümhuriyyət yarananda bu cəsur insanlar millətin qurduğu istiqlal binasına durmadan və usanmadan möhkəm kərpiclər qoymağa başladılar. Bu dövrdə Gəncə milli istiqlalımızın ərk qalasına, müqavimət mərkəzinə çevrildi. Gəncədən özünün Zəfər yürüşünə başlayan ADR hökuməti Azərbaycan istiqlalını və suverenliyini cəmi 3 ay ərzində Bakı, Qarabağ, Zəngəzur və Naxçıvan da daxil olmaqla, 115 km$^2$ ərazidə bərqərar etdi. 1920-ci ilin aprelində XI Bolşevik ordusunun timsalında rus işğalı başlayanda Gəncə yenidən istiqlal aşiqlərinin müqavimət mərkəzinə, xalqın qeyrət qalasına çevrildi. Yuxarıda adları çəkilən şəxslərin hər biri rus-erməni birliyinə qarşı yönəlmiş Gəncə üsyanında (22-31 may 1920) iştirak etmiş və tarixdə misli görünməmiş qəhrəmanlığa imza atmışdılar. Məhəmməd Mirzə Qacarın (1872 - 30.05.1920, ADR ordusunun general-mayoru), Cahangir Kazımbəyovun (1885-1955, ADR ordusunun polkovniki), Teymur bəy Novruzovun (1880-1961, ADR ordusunun general-mayoru) və Cavad bəy Şıxlinskinin (Cavad Şıxlı və yaxud Şeyxli - 1874-1959, ADR ordusunun general-mayoru) komandanlıq etdiyi Gəncə üsyanında bütün gəncəlilər bir nəfər kimi işğalçılara “yox” dedi. Bununla da qəhrəman Gəncə və onun igid insanları sübut etdi ki, Azərbaycan adi bir yaşayış yeri deyil, milyonlarla insanın, naminə öz canlarını qurban verməyə hazır olduğu müqəddəs Vətəndir.

ADR ordusunun hərbi birləşmələri ilə çiyin-çiyinə vuruşan gəncəlilər böyük rəşadət göstərirdilər. 10 gün şiddətli top atəşi altında qalan şəhər müdafiəçilərinin müqaviməti sındırılsa da,

12 minə yaxın insan həlak olsa da, 15 min insan əsir götürülsə də, Rusiya irticası və xəyanətkar ermənilərdən dəstək alan bolşevik hərb maşını Gəncənin üsyankar və azadlıqsevər ruhunu məhv edə bilmədi. Müxtəlif cəbhələrdə xüsusi qəddar-lığı, soyğunçu və vandal xislətilə ad çıxarmış acgöz bolşevik ordusu Gəncəni barbar üslubunda yağmaladı (qeyd edək ki, bolşevik komandirləri əvvəlcədən zorakı rus əsgərinə, qalib gələcəkləri halda Gəncəni qənimət alacaqları vədini vermişdi). Azərbaycan generallarının bir qismi qətlə yetirildi [4].

Mühasirədən çıxa bilənlər isə Gürcüstana, İrana və Türkiyəyə mühacirət etməyə məcbur oldular. Gəncə üsyanı dəhşətlərilə gəncəlilərin və bütün azərbaycanlıların genetik kodunda düşmənə əbədi nifrət kodu yaratdı və həmin kod onilliklər sonra yenidən aktiv fazaya keçərək əsarət boyunduruğunu üzərindən həmişəlik atdı.

**Gəncə və gəncəlilər suveren Azərbaycan Respublikasında**

Bu gün Gəncə şəhəri və gəncəlilər müstəqil Azərbaycan Respublikasının iqtisadi, siyasi və mədəni həyatında, ölkəmizin müdafiəsində, beynəlxalq aləmdə müsbət imicinin və yüksək adının formalaşmasında müstəsna rol oynayır. Cavad xanın qəhrəmanlıq məktəbindən sonsuz güc alan çağdaş Gəncə və yeni nəsil gəncəlilər Azərbaycanın azadlığı istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizədə - Birinci və İkinci Qarabağ müharibəsində misli görünməmiş igidlik nümayiş etdirərək yüzlərlə şəhid vermişdir. Bu gün Cavad xandan miras qalmış igid və qəhrəman Gəncənin girişində yolboyu 44 günlük Vətən müharibəsinə öz adlarını qızıl hərflərə yazmış 112 şəhidin müqəddəs təsvirləri yerləşir. Əməlləri yerdə ruhları Cənnətdə olan həmin insanlar Vətənin dar günündə bir daha sübut etdilər ki, Cavad xanın fədailik məktəbi yaşayır və vətənsevər gəncəlilər daim Azərbaycan naminə canlarını qurban verməyə hazırdırlar. 44 günlük Vətən müharibəsində düşmənin hədəfinə tuş gələn və raket atəşinə məruz qalan Gəncə və qəhrəman gəncəlilər 1804-cü ilin soyuq yanvar günlərində işğalçı rus ordusunun həmlələri zamanı, 1920-ci ilin 22-31 may tarixində boşevik mərmilərinin yağış kimi yağdığı vaxtlarda olduğu kimi bu dəfə də bütün itkilərin acığına sübut etdi ki, Azərbaycan insanının müstəqillik, azadlıq, istiqlal və igidlik ruhunu məhv etmək mümkün deyil.

**Nəticə**

Hazırda milli tariximizə qızıl səhifələr yazmış, Azərbaycan mədəniyyətinə və dünya siviliza-siyasına böyük şəxsiyyətlər bəxş etmiş Gəncə ölkə iqtisadiyyatının, elminin, təhslinin və mədəniy-yətinin avanqardlarından biri olaraq qalır.

Gəncə Cənubi Qafqazda və Azərbaycan Respublikasında ən vacib və əlverişli strateji məntə-qələrdən biri kimi müxtəlif sivilizasiyaların kəsişdiyi, Şərqlə Qərbin, Avropa ilə Asiyanın qovuş-duğu, mədəniyyətlərin və sivilizasiyaların bir-birinə qarşılıqlı təsir göstərdiyi bir məkanda yerləşir.

Müasir Gəncə yeniliklə ənənələrin, dünyəvi dünyagörüşü ilə dini ideologiyanın, müasirliklə patriarxallığın sintezindən ərsəyə gəlmiş yeni və xüsusi fenomendir. Azərbaycanın milli tarixində xüsusi rolu, çəkisi və misilsiz əhəmiyyəti olan bu fenomen “Azərbaycan” ideyasının şanlı tarixdən tükənməz güc alan ən vacib elementlərindən biri kimi dövlətimiz və milli taleyimiz üçün yüksək dəyər kəsb edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə quberniyasından olan dövlət xadimləri (PDF). Gəncə: Elm nəşriyyatı. 2018. - S. 309

2. Qacar M.B. “Cavad xan Ziyadoğlu-Qacarın əcdadları və sələflər” Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli. Gəncə: Elm. Fuad Əliyev. 2020. – S. 27

3. Mərdanov M.C., Tahirzadə A.Ş. 1920-ciilədək ali məktəblərdə oxumuş azərbaycanlılar / - Баку: Тахсил, 2020. - Т. 4. - С. 65. - 535 с.

4. Nəzirli, Şəmistan. Güllələnmiş Azərbaycan generalları. Bakı. 2016. - S. 416. - 704 s.

5. Тураева М.О. Транспортно-инфраструктурные проекты в Евразии // Мир перемен: журнал. - М., 2016. - № 1. - С. 127

6. Прудников В.В., Тимохин Д.М., Тишин В.В. Сельджуки между Востоком и Западом: очерки истории и историографии / отв. ред. А.Ш. Кадырбаев; Институт востоковедения РАН. - М.: ИВ РАН, 2024. - 422 с.

7. Урушадзе А.Т. Кавказская война. Семь историй. Москва: Новое литературное обозрение, 2018. 336 с.

8. Ochsenwald, William. The Middle East, A History. - McGraw-Hill Education, 2004,- P. 55

9. François De Blois. Persian Literature - A Biobibliographical Survey / François De Blois. – Routledge, 2004. - Vol. V Poetry of the Pre-Mongol Period. - C. 363. - 544 c.

## HEROIC GANJA, WHICH WROTE BRILLIANT PAGES IN THE GLORIOUS CHRONICLE OF THE HISTORY OF OUR NATIONAL STATEHOOD AND SOVEREIGNTY

**A.N.Ismailov**
Doctor of Philosophy in History
Mingachevir State University

***Abstract:*** *In the formation of the national history of the Azerbaijani people, the city of Ganja has a unique and inimitable style. The city, which gave Azerbaijan and the world great scientists, poets, writers, thinkers and heroes, in different periods of history was given such names and statuses as "fortress of honor", "center of resistance" and "second capital", made a huge and incomparable contribution to the triumph of national sovereignty and the elevation of the spirit of freedom and independence of the Azerbaijani people.*

*After the division of Azerbaijan into two parts between the Russian Empire and Iran in 1828, Ganja lost the status of "khanate" and "state", faced severe trials, and despite this remained on its feet, thanks to the unshakable strength and spiritual energy that it inherited from glorious history and from tradition-rich narratives.*

*Persistently and reliably protected and preserved national uniqueness, religious, spiritual and cultural characteristics. The city of Ganja, with its creative and transformative potential, established itself as one of the centers in the South Caucasus and Azerbaijan, where science, education and secular views flourished at a rapid pace, where, for the first time in the Muslim East, the advanced ideas of positivism, democracy, and liberalism were steadily turning into reality. The high creative atmosphere that historically existed in Ganja gave a significant impetus to the formation of the national intellectual elite of Azerbaijan, and produced great personalities who elevated spiritual and cultural values and traditions borrowed from past generations to the highest levels of honor. At the present time, Ganja, which has the status of the "second city" of Azerbaijan, plays a vital role in the socio-economic, socio-political and spiritual-cultural life of the state and people. At the present time, Ganja, which has the status of the "second city" of Azerbaijan, plays a vital role in the socio-economic, socio-political and spiritual-cultural life of the state and people.*

*The presented article talks about the exceptional role of the city of Ganja in the history of statehood of the Azerbaijani people. Its glorious chronicle, embodied in golden letters in the national history of Azerbaijan, is subjected to scientific analysis and receives an adequate assessment.*

***Keywords***: *Azerbaijan, Ganja, history, national independence, hero city, national statehood*

# ГЕРОИЧЕСКАЯ ГЯНДЖА, НАПИСАВШАЯ БЛЕСТЯЩИЕ СТРАНИЦЫ В СЛАВНОЙ ХРОНИКЕ ИСТОРИИ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ И СУВЕРЕНИТЕТА

**А.Н.Исмаилов**
доктор философии по истории
Мингячевирский государственный университет

***Резюме:*** *В формировании национальной истории азербайджанского народа город Гянджа имеет уникальный и неповторимый почерк. Городу, который дал Азербайджану и миру великих ученых, поэтов, писателей, мыслителей и героев, в разных периодах истории были присвоены такие имена и статусы, как «крепость чести», "центр сопротивления", «вторая столица», отдавал огромный и несравнимый вклад в торжество национального суверенитета и возвышению духа свободы и независимости азербайджанского народа.*

*После раздела 1828-ом году Азербайджана на две части между Российской империей и Ираном, Гянджа утратила статус «ханства» и «государства», предстала перед суровыми испытаниями, и, несмотря на это оставалась на ногах, благодаря непоколебимой силе и духовной энергии, которые унаследовала от славной истории и от богатых традициями нарративов.*

*Настойчиво и надежно охранял и сохранил национальную уникальность, религиозные и духовно-культурные особенности. Город Гянджа со своим творческим и преобразующим потенциалом утвердил себя, как один из центров в Южном Кавказе и Азербайджане, где быстрыми темпами происходило процветание науки, просвещения и светских взглядов, где впервые в мусульманском Востоке передовые идеи позитивизма, демократизма, либерализма устойчиво превращались в реальность. Высокая креативная атмосфера, исторически существовавшая в Гяндже, дала существенный толчок к делу формирования национальной интеллектуальной элиты Азербайджана, и производила великих личностей, возводившие духовно-культурные ценности и заимствованные из прошлых поколений традиции, на высшие ступени почета. В нынешнее время, Гянджа, имеющая статус «второго города» Азербайджана, играет важнейшую роль в социально-экономической, общественно-политической и духовно-культурной жизни государства и народа.*

*В представленной статье речь идет об исключительной роли города Гянджа в истории государственности Азербайджанского народа. Ее славная летопись, золотыми буквами запечатленная в национальной истории Азербайджана подвергается научному анализу и получает адекватную оценку.*

***Ключевые слова****: Азербайджан, история, Гянджа, национальная независимость, город-герой, национальная государственность*

**Elmi redaktor: t.f.d., dos. E.Aslanov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 15.04.2025**
**Çapa qəbul edilib: 22.04.2025**